BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2009

# PEDAQOGİKA

## «MOLLA NƏSRƏDDİN» JURNALI ESTETİK TƏRBİYƏ HAQQINDA

**R.H.NƏZƏROVA**
*Naxçıvan Dövlət Universiteti*

*Məqalə "Molla Nəsrəddin" jurnalının estetik tərbiyədə oynadığı rolla bağlı məsələlərin tədqiqinə həsr olunmuşdur. Burada həmçinin Azərbaycan mütəfəkkirlərinin dəyərli fikirlərinə də yer verilir.*

Estetik tərbiyə məsələlərinin, o cümlədən gəncliyin estetik tərbiyəsinin formalaşdirilması məsələlərinin tədqiqi pedaqogika elminin mərkəzi problemlərindən biri olaraq, öz aktuallığı ilə həmişə diqqəti cəlb etmişdir [1-7] .

M.F.Axundov tərki – dünyalıq ideyalarını təbliğ edən insanları, həyatda ən adi zövqləri belə qadağan edən din nümayəndələrini ciddi surətdə pisləyirdi. O, insan ləyaqətini alçaldan ruhaniləri «şarlatan» adlandıraraq yazırdı: «Ey vaizlər…, ey şarlatanlar, nə üçün avam camaatı… nemətlərdən məhrum edirsiniz? Niyə onun həyatını zəhrimara döndərmisiniz..? Nəğmə oxuma – haramdır, nəğməyə qulaq asma – haramdır, nəğmə öyrənmə – haramdır, teatr, yəni tamaşaxana qayırma – haramdır, teatra getmə – haramdır, rəqs etmə – məkrufdur, rəqsə tamaşa etmə – məkrufdur, saz çalma – haramdır, saza qulaq asma – haramdır, şahmat oynama – haramdır, rəsm çəkmə – haramdır, evdə heykəl saxlama – haramdır». M.F.Axundov daha sonra davam edərək yazırdı: «…bütün bu saydıqlarımız zahirdə yüngül işlər görünsə də, sizin xəbəriniz yoxdur ki, əgər ifrata yol verilməzsə, bunlar insan təbiətini şadlandıran, onun ağlına və fikrinə cila verən cövhərlərdəndir. İnsanın təbiəti şadlıq və kədər üçün yaranmışdır və bu iki qüvvədən hər birinin insan təbiətində öz rolu vardır və bu qüvvələr işlənmədikdə kütləşə bilər, necə ki, qolu bir il tərpətməsən quruyar» [8].

Azərbaycan maarifpərvərləri qeyd edirdilər ki, insana nəğmə, rəqs, teatr qəm vermir, əksinə insanı qəmli edən yalançı mollalardır ki, onlar İslam dinini təhrif edir, «Quran»ın ayələrini öz məqsədlərinə uyğun təfsir edirlər. «Molla Nəsrəddin» jurnalı Azərbaycan maarifçilərinin estetik tərbiyə haqqındakı mütərəqqi fikirlərini XX əsrin əvvəllərində daha qüvvətli bir şəkildə irəli sürürdü.

«Molla Nəsrəddin» jurnalı incəsənətin ideya saflığı, tərəqqisi və tərbiyəvi rolu ilə bağlı ardıcıl mübarizə aparırdı. Jurnal «Teatr və musiqi», «Elm və musiqi» və s. yazılarda müsiqinin tərbiyəvi əhəmiyyətindən danışaraq yazırdı: «Məlumdur ki, camaatın qabağa getməsi üçün teatr məclisləri ən faydalı bir şeydir. Bəlkə belə olan surətdə teatr məclislərinin inkişaf tapacağını lazım və vacib bilmək lazımdır, həmin bu məqsədə çatmaq üçün sair millətlər şəhərlərdə və hətta kəndlərdə teatr cəmiyyətləri

bina edirlər. Bu yolda çox pullar qoyub və teatrxanalar təsis edib, teatr işçilərinin günü-gündən tərəqqisinə çalışırlar. Yunanıstanda Homerin, İngiltərədə Şekspirin, Almaniyada Hötenin, Rusiyada Qoqolun, İtaliyada Qoldenin və başqalarının adları aləmi-mətbuatda min illər qalacaqdır» [9].

«Molla Nəsrəddin» jurnalı adamların tərbiyə olunmasında estetik tərbiyəyə yüksək qiymət verirdi. Estetik tərbiyə adamlarda nəcib sifətləri, rəftar və davranış qaydalarını yaxşılaşdırır, əxlaqi keyfiyyətlərini gözəlləşdirir, bədii aləmdən baş çıxarmağa kömək edir. Estetik tərbiyə adamların, xüsusən gənclərin bədii zövqünü, mühakiməsini inkişaf etdirir, onlarda dostluq, yoldaşlıq etməyi, ittifaq bağlamağı daha da möhkəmləndirir. Estetik tərbiyə uşaqlarda bədii hisslərin, qavrayışların inkişafına, gözəlliyi sevmək və ondan həzz almaq işinin yaxşılaşmasına yaxından təsir edir. Estetik tərbiyə gənclərdə yaradıcılıq qabiliyyətini inkişaf etdirir. Bu nöqteyi – nəzərdən «Molla Nəsrəddin» jurnalı estetik tərbiyə və onun bütün vasitələrinin tərbiyədəki roluna böyük əhəmiyyət vermişdir.

«Molla Nəsrəddin» jurnalı dərc etdirdiyi felyetonlarda xalqı başa salırdı ki, müsəlman millətinin heç bir üdəba və fəlasifələri (filosofları) olmayıb ki, onlar musiqi aləmini pisləsinlər və bu barədə kitablar yazsınlar. «Xudavəndi – aləm yuxarıdan tamaşa eləyib görür ki, yaratdığı millətlərin içində müsəlman milləti kimi heç bir millət yoxdur ki, onun üdəba və fəlasəfələri min – min cild kitablar yazıb musiqi aləminə min – min lənət oxusunlar».

«Molla Nəsrəddin» jurnalı musiqiyə böyük qiymət verirdi. O, dünyanın ən böyük musiqi xadimlərini səmimi qəlbdən sevir və onların musiqi əsərlərinin öyrənilməsini vacib bir iş hesab edirdi. Jurnal musiqi aləmində şöhrət tapmış bir sıra şəxsləri misal gətirərək xalqı başa salmağa çalışırdı ki, musiqidən, incəsənətdən qaçmaq olmaz, hər bir xalqın tarixində, onun inkişafında, dünya mədəniyyətinə gətirdiyi yeniliklərdə musiqinin böyük rolu olmuşdur. İtaliya, Almaniya və Rusiyada musiqi sahəsində böyük dahilər yetişmişdir. «Bəli, tarixə əgər əl vursaq, çox şeylər görərik ki, vaqeən bir vaxt Ərəbistanda musiqinin şöhrəti aləmə yayılmışdı; amma həmin tarixi başlasaq vərəqləməyə, axırda görərik ki, İtaliyada katolik kilsəsində hətta ibadəti də musiqi sədaları altında aparırdılar. Almaniyada Bethovenlər, Motsartlar, Şuman və Şubertlər, Mendelsonlar və qeyriləri musiqi elmini *ovçi* – əlayə yetiriblər ki, görərik ki, Rusiyada Qlinkalar rus mujikləri oxuduqları milli məqamatlarını elə bir məharət ilə gözəlləndiriblər ki, bütün yer üzərində musiqi söhbəti düşəndə rusların Qlinkasına rəhmət oxuyurlar» [10].

Mollanəsrəddinçilər müxtəlif yollarla bədii tərbiyə vasitələrini xalqa qadağan edən fırıldaqçı din nümayəndələrini tənqid edirdilər. «Molla Nəsrəddin» jurnalının cəfakeş əməkdaşı olan Qəmküsar tərəfindən yazılmış şeirlərin birində deyilir:

«Musiqi nəğməsinin çöldə eşitcək səsini,
Mollamız evdə oturduqca qulağın tıxayır,
Bilmirəm, bəs nə əcəb tab eləyir məsciddə
Çıxır mərsiyəxan ilə şahnaz oxuyur» [11].

«Molla Nəsrəddin» jurnalında bədii zövqü inkişaf etdirmək, uşaq və gəncləri tərbiyə etmək üçün teatr tamaşalarının oynanılmasına yüksək əhəmiyyət verilirdi.

Bədii tərbiyədə teatr tamaşalarının roluna böyük qiymət verən jurnal yazırdı ki, adam öz buraxdığı nöqsanları özü görə bilmir, lakin teatr tamaşalarına baxdıqda həmin nöqsanların ümumiləşdirilmiş nümunələrini görür. Təsadüfi deyil ki, C.Məmmədquluzadə bir sıra səhnə əsərləri də yaratmışdır.

Jurnal, ümumiyyətlə, teatrların, xüsusilə məktəb teatrlarının olmasına, onun

tərbiyəvi əhəmiyyətinə yüksək qiymət verirdi. Çünki uşaqların dərsdən sonra boş vaxtlarını lazım olmayan yerlərdə keçirmələrindənsə məktəb teatrlarında keçirmələri daha əlverişlidir. Bu onların bədii zövqlərinin, mühakimələrinin inkişafına kömək edər. «Keçən günlərdə bir müəllim istəyirmiş məktəbdə uşaqlar üçün teatr düzəltsin. A başına dönüm, bu xəbəri eşitcək cəmi müsəlman müəllimləri «ittihadi müsəlmani» eləyib bu nadinc müəllimi baykot eləyirlər və səbəb də bunu qoyurlar ki, niyə qoymursan dinc və fəraqət oturaq» [12].

«Molla Nəsrəddin» jurnalı dünyada şöhrət tapmış və dünya ədəbiyyatına öz dəyərli incilərini vermiş şəxslərin pyeslərinin səhnədə oynanılmasına çalışırdı. «Teatr məclislərində oynanılan məzhəkəli təmsillər, komediyalar, həzinamiz faciələr yer üzündə ən artıq məharətli və dərin fikir sahibləri olan ədiblərin qələmlərinin əsərləridir».

Mərhum Mirzə Fətəlinin «Hacı Qara» kimi bir komediyası Avropa nöqteyi–nəzərincə mötəbər əsərlərin cərgəsinə daxil olmalıdır [9]. Jurnala görə, böyük yazıçılar zamanın yaxşı əsərləri səviyyəsində olan ölməz əsərlər yaratmışlar. Həmin əsərlər uşaqlarımızın bədii tərbiyəsinə öz müsbət təsirini göstərə bilər, onlardan istifadə etmək lazımdır. Jurnal Azərbaycan xalqının böyük materialist – filosofu və klassik ədəbiyyat nümayəndəsi olan M.F.Axundovun «Hacı Qara» komediyasına yüksək qiymət verərək dünya ədəbiyyatında böyük şöhrət qazandığını qeyd edirdi. Doğrudan da, «Hacı Qara» əsəri realist bir əsər kimi dünya ədəbiyyatında özünəməxsus yer tutur. Axundov bu əsərdə feodal – patriarxal dünyasının çürüklüyünü, tacirlərin çürük əxlaqi keyfiyyətlərini, tamahkarlığını pisləyir. Bu nöqteyi – nəzərdən jurnal həmin əsərin oynanılmasını məsləhət görür. Çünki bu əsər uşaqlarımızın tərbiyəsinə öz müsbət təsirini göstərir.

«Molla Nəsrəddin» jurnalı camaata «teatr haramdır!», «teatra kömək edənlər o dünyaya», «…..şapka qoyan İvan sifətində gələcək», qramafon səsinə «yox, yox haramdır ona qulaq asmaq, oradan cin səsi gəlir», «müsəlman teatrçıları şəriətə xilafdır» [13] deyən din nümayəndələri ilə həmişə mübarizə aparırdı. Jurnal çox kəskin dildə, bəzən gülməli, bəzən kədərli, bəzən felyeton, hekayə, son xəbərlər, bilməli xəbərlər və bəzən də satirik şeirlər vasitəsilə vaizlərin çürük fikirlərini ifşa edirdi. Jurnalda dərc olunmuş «Kazandan məktub» adlı məqalədə [14] yazılır: «Bir gün mollalar ağsaqqallara dedilər ki, teatr köhnədir, buna görə gərək teatrı bağlayaq. Yığılıb bir «Petisiya» düzəldib cənab qubernatorun qulluğuna göndərdilər. Qubernator da baxmadı. Sonra cümə günü cəmi məscidlərdə duadan sonra bir para mollalara dedilər və hamısı bunu ərz etdilər ki, teatra gedən cəhənnəmə gedən kimidir, ay müsəlman qardaşlar, sizin ki, arvadlarınız, qızlarınız teatra gedirlər və orada kişilərlə görüşürlər, fahişəxanaya gedən kimidirlər. Müsəlman bəndəsi oraya getməməlidir». Yaxud teatr haqqında iki hacının söhbətinə diqqət yetirək: «Molla Nəsrəddin» jurnalı yazırdı: «Bir teatr cəmiyyəti məndən xahiş etdi ki, bir əba tapım. İrəlilər də mən teatr üçün bir para libas tapıb verərdim ki, teatr məclisində geysinlər. Bu dəfə də əbamı vurdum qoltuğuma ki, aparım teatra. Qədim dostum molla Həmdulla miyanəli mənə rast gəldi və əbanın əhvalatını soruşdu və mən də cavab verdim. Gördüm dostumun rəngi bozardı və bir qədər mənim üzümə baxıb dərin bir ah çəkdi, sonra yapışdı əbadan və başladı dartmağa. Dedim – axı, yekə kişisən, sözünü de, görüm nə istəyirsən? Molla əbanı boşladı və üzünü məndən çöndərdi ki, getsin və gedə-gedə məndən soruşdu: qiyamətdə nə cavab verəcəksən? Dedim - kimə? Dedi - Allaha. Dedim – nədən ötrü? Dostum bir az uzaqlaşıb… əlindəki ağacı göyə qovzuyub başladı: ay məlun, sizin kimi ləmzahəblər şəriətin belini sındırdılar». Xülasə, əbamı

apardım teatr məclisinə, həmin gecə teatr məclisində əbamı geyib oynadılar. Mən də baxırdım. Sabah oldu, gördüm ki, gözlərim bərk ağrıyır. İndi bu saat elə bir şiddətlə ağrıyır ki, gözlərimi aça bilmirəm. İndi bu sözləri yazmaqdan qəsdim teatr məclislərinə libas verən qardaşlarımı xəbərdar eləməkdir ki, bu işlərin nəticəsi, söz yox ki, axırda məlum olacaqdır. Hələ bəzi biar adamlar teatrlara övrətlərinin də libaslarını aparırlar».

Jurnal şəkillərdən çox məharətlə istifadə edərək xalqı başa salırdı ki, teatrlara gedin, bədii zövqünüzü inkişaf etdirin, boş vaxtlarınızı şən, gümrah və əyləncəli yerlərdə keçirin. Jurnalın 1909-cu il №11, 13, 1910-cu il №2, 3, 16 saylarında belə şəkillərə tez-tez təsadüf olunur [15-19]. Jurnalda verilmiş bir şəklə diqqət yetirək: Qramafon çalınır, müsəlman ziyalıları qulaq asır, avam camaat isə bu səsi eşidən kimi qaçırlar. Onları tutub zorla saxlamaq istəyirlər, lakin mümkün olmur. Şəklin altında isə avam camaatın dili ilə deyilən bu sözlər yazılmışdır: «Yox, yox, haramdır ona qulaq asmaq:- oradan cin səsi gəlir» [15]. Və yaxud başqa bir şəkildə belə bir hadisə təsvir edilir: cəmiyyəti xeyriyyənin üzvləri avam camaata teatr bileti satmaq təklif edirlər, hacılar bileti almaq istəməyərək qaçırlar. Cəmiyyəti xeyriyyənin üzvləri də onların ardınca qaçır, onlardan birini güclə tutub yerə yıxırlar və bileti onun ağzına soxurlar. Şəklin altında isə bu sözlər yazılmışdır: «Tiflisdə Şeytanbazarda cəmiyyəti xeyriyyə üzvləri müsəlmanlara teatr bileti satırlar».

Beləliklə, Azərbaycan maarifpərvərləri «Molla Nəsrəddin» jurnalı vasitəsilə incəsənətin ideya saflığı, tərəqqisi və tərbiyəvi rolu ilə bağlı qiymətli fikirlər söyləmiş, müxtəlif yollarla bədii tərbiyə vasitələrini (musiqi, rəqs, nəğmə, teatr, bədii ədəbiyyat) haram buyuran və qadağan edən fırıldaqçı din nümayəndələrini kəskin tənqid etmişlər. Mollanəsrəddinçilərin belə mütərəqqi məzmuna malik ideya-estetik fikirləri Azərbaycan ictimai-pedaqoji hərəkatı tarixində çox əhəmiyyətli səhifələrdən biridir.

## ƏDƏBİYYAT


1. Ağayev İ. Tarixi yaddaşımızın böyük yadigarı. Bakı: Elm, 2006.
2. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ABU, 2001, 320 s.
3. Talıbov Y., Sadıqov F., Quliyev S. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Ünsiyyət, 2000, 513 s.
4. Tağıyev Ə. Azərbaycanda məktəb tarixi. Bakı: Maarif, 1993, 114 s.
5. Kazımov N.M. Məktəb pedaqogikası. Dərslik. Bakı: Çaşıoğlu, 2002, 448s.
6. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika.Yeni kurs. Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı: Çaşıoğlu, 2002, 512s.
7. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Mühazirə kursu. Bakı: Çaşıoğlu, 2002, 448 s.
8. Axundov M.F. Əsərləri. 3 cilddə, II c., Bakı: Gənclik, 1961, 570 s.
9. «Molla Nəsrəddin» jurnalı, 1906, №28.
10. «Molla Nəsrəddin» jurnalı, 1909, №25.
11. «Molla Nəsrəddin» jurnalı, 1911, №2.
12. «Molla Nəsrəddin» jurnalı, 1911, №13.
13. «Molla Nəsrəddin» jurnalı, 1911, №30.
14. «Molla Nəsrəddin» jurnalı, 1908, №10.
15. «Molla Nəsrəddin» jurnalı, 1909, №11.
16. «Molla Nəsrəddin» jurnalı, 1909, №13.
17. «Molla Nəsrəddin» jurnalı, 1910, №2.
18. «Molla Nəsrəddin» jurnalı, 1910, №3.
19. «Molla Nəsrəddin» jurnalı, 1910, №16.

**ЖУРНАЛ «МОЛЛА НАСРАДДИН» ОБ ЭСТЕТИЧЕСКОМ ВОСПИТАНИИ**

**Р.Г.НАЗАРОВА**

**РЕЗЮМЕ**

Статья посвящена исследованию вопросов, связанных с ролью журнала «Молла Насраддин» в области эстетического воспитания. Показано, что азербайджанские просветители высказали свои ценные мысли, связанные с идейной чистотой, прогрессом и воспитательной ролью искусства с помощью журнала «Молла Насраддин», и эти идеи в области эстетического воспитания имеют большое значение в истории азербайджанском социально-педагогическом движении.

**"MOLLA NASRADDIN" MAGAZINE ON AESTHETIC EDUCATION**

**R.H.NAZAROVA**

**SUMMARY**

The article is devoted to the investigation of the questions connected with the role of the "Molla Nasraddin" magazine in the field of aesthetic education. It is shown that the Azerbaijanian enlighteners gave their valuable opinions connected with the idea purity, progress and educational role of art by means of "Molla Nasraddin" magazine and these opinions in the field of aesthetic education are of great importance in the history of the Azerbaijanian social and pedagogical movement.